UOT 336
https://doi.org/10.30546/25194011.2026.15.02.2186

QEYRİ-MONETAR SUBSİDİYALAR BARƏDƏ BEYNƏLXALQ MALİYYƏ HESABATI STANDARTI (BMHS-METO)

Çingiz ABİDLİ*

Daxil olub: 19 Yanvar 2026 | Qəbul edilib: 4 Fevral 2026 | Onlayn nəşr edilib: 17 May 2026.
Received: 19 January 2026| Accepted: 4 February 2026 | Published online: 17 May 2026.

Açar sözlər: *subsidiya xərcləri, maliyyə nəzarəti, maliyyə uçotu, dövlət büdcəsi, sosial-iqtisadi siyasət*

Giriş

Müasir dövrdə dövlətin maliyyə siyasətinin əsas istiqamətlərindən biri büdcə vəsaitlərinin səmərəli, şəffaf və məqsədyönlü istifadəsinin təmin edilməsidir. Bu kontekstdə subsidiya xərcləri dövlətin iqtisadi və sosial proseslərə təsir mexanizmləri arasında xüsusi mövqeyə malikdir. Subsidiya vasitəsilə dövlət iqtisadiyyatın strateji sahələrini dəstəkləyir, sosial cəhətdən həssas əhali qruplarının rifahını qorumağa çalışır, regional inkişafdakı disbalansı aradan qaldırır və bazar mexanizmlərinin yaratdığı mənfi təsirləri yumşaldır. Bu səbəbdən subsidiya xərcləri dövlət büdcəsi xərclərinin strukturunda mühüm paya malik olmaqla yanaşı, onların idarə edilməsi və qiymətləndirilməsi məsələsi aktual elmi-praktik əhəmiyyət kəsb edir.

Müasir iqtisadi şəraitdə dövlətlərin sosial-iqtisadi inkişaf məqsədlərinə nail olmaq üçün tətbiq etdikləri subsidiya mexanizmləri getdikcə daha fərqli formalarda həyata keçirilir. Bu formalar arasında qeyri-monetar subsidiyalar xüsusi yer tutur. Qeyri-monetar subsidiyalar pul vəsaiti şəklində deyil, aktivlərin, xidmətlərin, güzəştlərin və ya digər maddi və qeyri-maddi resursların ayrılması yolu ilə göstərilən dövlət dəstəyini əhatə edir. Bu növ subsidiyalar dövlət və özəl sektor subyektlərinin maliyyə hesabatlarında düzgün tanınması və açıqlanması baxımından böyük önəm daşıyır. Məhz bu ehtiyacdan irəli gələrək beynəlxalq mühasibat uçotu və maliyyə hesabatlılığı sistemində dövlət subsidiyalarının, o cümlədən qeyri-monetar subsidiyaların uçotunun vahid prinsiplər əsasında tənzimlənməsi zərurəti yaranmışdır. Bu sahədə əsas normativ sənədlərdən biri Qeyri-monetar subsidiyalar barədə Beynəlxalq Maliyyə Hesabatı Standartı (BMHS-METO) hesab olunur. Sözügedən standart qeyri-monetar formada təqdim edilən dövlət subsidiyalarının tanınması, qiymətləndirilməsi, uçotu və maliyyə hesabatlarında açıqlanması ilə bağlı metodoloji yanaşmaları müəyyənləşdirir.

BMHS-METO-nun əsas məqsədi müəssisələrin maliyyə hesabatlarında qeyri-monetar subsidiyalar üzrə məlumatların şəffaf, müqayisəolunan və etibarlı şəkildə təqdim edilməsini təmin etməkdir [7]. Standart çərçivəsində dövlət tərəfindən pulsuz və ya güzəştli şərtlərlə verilən torpaq sahələri, avadanlıqlar, infrastruktur obyektləri, lisenziyalar və digər aktivlərin maliyyə hesabatlarında əks etdirilmə qaydaları aydın şəkildə izah olunur. Bu isə istifadəçilərin müəssisənin maliyyə vəziyyəti və fəaliyyət nəticələri barədə daha dolğun qərarlar qəbul etməsinə imkan yaradır.

Qeyd etmək lazımdır ki, qeyri-monetar subsidiyalar birbaşa pul axını yaratmasa da, müəssisələrin istehsal potensialına, xərclər strukturuna və uzunmüddətli maliyyə dayanıqlığına əhəmiyyətli təsir göstərir. Bu baxımdan BMHS-METO-nun tətbiqi yalnız mühasibat uçotu baxımından deyil, həm də dövlət maliyyə nəzarəti və fiskal şəffaflıq kontekstində mühüm əhəmiyyət daşıyır.

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: chingizabidli13@gmail.com.

1. Subsidiya xərclərinin iqtisadi mahiyyəti və dövlət büdcəsində rolu

Dövlət maliyyə nəzarəti – büdcənin formalaşdırılması və icrası prosesində qanunauyğunluğun, maliyyə intizamının, eləcə də şəffaflığın təmin edilməsinə yönəlmiş institusional mexanizmlərin məcmusudur. Bu nəzarət sistemi vasitəsilə maliyyə resurslarının planlaşdırılması, bölüşdürülməsi və istifadəsi mərhələlərindəki mümkün risklər müəyyən edilir, maliyyə pozuntularının qarşısı alınır və büdcə vəsaitlərinin səmərəliliyi qiymətləndirilir. Subsidiya xərcləri isə spesifik xüsusiyyətlərinə görə maliyyə nəzarətinin daha diqqətli və sistemli şəkildə tətbiqini tələb edən xərclər kateqoriyasına aiddir.

Təcrübə göstərir ki, subsidiya xərclərinin qeyri-effektiv idarə olunması dövlət maliyyə resurslarının israfına, fiskal yükün artmasına və büdcə balansının pozulmasına səbəb ola bilər. Bununla yanaşı, subsidiya mexanizmlərində şəffaflığın zəif olması korrupsiya risklərini artırır və dövlət dəstəyinin real ehtiyacı olan subyektlərə çatmamasına gətirib çıxarır. Belə neqativ hallar isə dövlətin sosial-iqtisadi siyasətinə olan etimadı zəiflədir və subsidiya alətlərinin effektivliyini azaldır. Bu mənada, sözügedən xərclərin dövlət maliyyə nəzarəti çərçivəsində qiymətləndirilməsi həm iqtisadi, həm də institusional baxımdan zəruridir.

Maliyyə nəzarətinin subsidiya xərclərinə tətbiqi fiskal intizamın möhkəmləndirilməsi ilə bərabər, dövlət büdcəsinin strateji məqsədlərə uyğun icrasına da əlverişli şərait yaradır. Bu nəzarət mexanizmi subsidiya proqramlarının hədəflərini, prioritetlərini və yekun nəticələrini obyektiv qiymətləndirməyə imkan verir. Eyni zamanda, nəzarət prosesində subsidiya siyasətinin uzunmüddətli iqtisadi inkişafa təsiri təhlil olunur və büdcə xərclərinin optimallaşdırılması üçün əsaslı qərarlar qəbul edilir [4, s. 41].

Qeyd etmək lazımdır ki, Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə subsidiya xərcləri iqtisadi siyasətin mühüm tərkib hissəsi olmaqla yanaşı, dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsini tələb edən əsas sahələrdən biridir. Aqrar sektorun, energetika sahəsinin, sosial təminat sisteminin və regional inkişaf proqramlarının subsidiyalaşdırılması dövlət büdcəsində əhəmiyyətli maliyyə yükü yaradır. Bu reallıq isə subsidiya xərclərinin səmərəliliyinin qiymətləndirilməsini və nəzarət mexanizmlərinin gücləndirilməsini aktuallaşdırır. Dövlət maliyyə nəzarətinin institusional imkanlarının genişləndirilməsi subsidiya siyasətinin daha şəffaf və nəticəyönümlü həyata keçirilməsini təmin edə bilər.

Müasir maliyyə idarəetməsi yanaşmalarında subsidiya xərclərinin qiymətləndirilməsi təkcə maliyyə göstəriciləri ilə məhdudlaşmır, eyni zamanda sosial-iqtisadi nəticələrin ölçülməsini də əhatə edir. Bu baxımdan dövlət maliyyə nəzarəti yalnız *ex-post* (sonradan) yoxlamalarla məhdudlaşmamalı, həm də preventiv (qabaqlayıcı) və strateji nəzarət alətləri ilə reallaşdırılmalıdır. Subsidiya proqramlarının planlaşdırma mərhələsindən başlayaraq icra və qiymətləndirmə mərhələlərinə qədər maliyyə nəzarətinin tətbiqi dövlət büdcəsinin effektivliyini artıran əsas amillərdən biri hesab olunur.

Subsidiya xərcləri dövlətin fiskal siyasətinin mühüm alətlərindən biri olmaqla, iqtisadiyyatın müxtəlif sahələrinə dövlət müdaxiləsinin maliyyə ifadəsidir. İqtisadi ədəbiyyatda subsidiya anlayışı dövlət tərəfindən fiziki və ya hüquqi şəxslərə, eləcə də ayrı-ayrı iqtisadi sahələrə birtərəfli qaydada göstərilən əvəzsiz maliyyə dəstəyi kimi izah olunur. Bu dəstəyin əsas məqsədi bazar mexanizmlərinin tam səmərəli fəaliyyət göstərmədiyi sahələrdə iqtisadi tarazlığın qorunması, sosial rifahın yüksəldilməsi və strateji inkişaf hədəflərinin reallaşdırılmasıdır.

Beləliklə, dövlət büdcəsində subsidiya xərcləri, adətən, sosialyönümlü tədbirlər, iqtisadi fəaliyyətin stimullaşdırılması və regional inkişaf proqramları çərçivəsində formalaşır. Sözügedən vəsaitlər kənd təsərrüfatı, energetika, nəqliyyat, logistika, kommunal xidmətlər, sosial təminat və digər prioritet sahələrə yönəldilir. Subsidiya mexanizmi vasitəsilə dövlət istehsal xərclərinin azaldılmasına, qiymət sabitliyinin qorunmasına və əhalinin sosial müdafiəsinin gücləndirilməsinə nail olmağa çalışır.

2. Dövlət maliyyə nəzarətinin mahiyyəti və subsidiya xərclərinə tətbiqi

Dövlət maliyyə nəzarəti – dövlətin maliyyə resurslarının formalaşdırılması və istifadəsi prosesində qanunvericiliyə riayət olunmasının, maliyyə intizamının, eləcə də şəffaflığın təmin edilməsinə yönəlmiş tədbirlər sistemidir. Bu nəzarət mexanizmi dövlət büdcəsi vəsaitlərinin məqsədyönlü və

səmərəli idarə olunmasını təmin etməklə yanaşı, mümkün maliyyə pozuntularının qarşısının alınmasına xidmət edir.

Sözügedən nəzarət sisteminin əsas məqsədi dövlət vəsaitlərindən istifadənin effektivliyini yüksəltmək və büdcə itkilərinin qarşısını almaqdır. Bu məqsəddən irəli gələrək dövlət maliyyə nəzarətinin aşağıdakı əsas funksiyaları fərqləndirilir [3, s. 108]:

- ✓ *Nəzarətedici funksiya* – maliyyə əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması;
- ✓ *Profilaktik funksiya* – maliyyə pozuntularının əvvəlcədən qarşısının alınması;
- ✓ *Analitik funksiya* – maliyyə göstəricilərinin təhlili və qiymətləndirilməsi;
- ✓ *İnformasiyaverici funksiya* – dövlət orqanlarının və cəmiyyətin maliyyə fəaliyyəti barədə məlumatlandırılması;
- ✓ *Tənzimləyici funksiya* – maliyyə intizamının gücləndirilməsi üçün idarəetmə qərarlarının qəbuluna dəstək verilməsi.

Qeyd olunan funksiyalar bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla dövlət maliyyə idarəçiliyinin səmərəliliyini artırır. Xüsusilə subsidiya xərcləri kimi həssas və sosial əhəmiyyətli sahələrdə nəzarət mexanizmlərinin təkmilliyi dövlət vəsaitlərinin hədəfəuyğun istifadəsini təmin edir.

Subsidiya xərcləri dövlət maliyyə nəzarətinin tətbiqi baxımından xüsusi spesifikaya malikdir. Bu xərclərin əsas xüsusiyyəti onların geniş subyekt dairəsini əhatə etməsi və sosial-iqtisadi nəticələrinin uzunmüddətli dövrdə formalaşmasıdır [5, s. 35]. Bu səbəbdən subsidiyalara nəzarət prosesi yalnız maliyyə hesabatlarının yoxlanılması ilə məhdudlaşmamalı, eyni zamanda müvafiq proqramların strateji məqsədlərə uyğunluğunu və yekun kəmiyyət-keyfiyyət göstəricilərini də əhatə etməlidir.

Lakin subsidiya xərclərinin ümumi xərclərdə yüksək paya malik olması dövlət büdcəsi üçün ciddi yük yarada bilər. Bu baxımdan subsidiya siyasətinin effektivliyi birbaşa dövlət maliyyə nəzarətinin keyfiyyətindən asılıdır. Sözügedən vəsaitlərin yalnız nəzərdə tutulan hədəflər üzrə və səmərəli şəkildə istifadə olunmasını təmin etmək baxımından subsidiyalara nəzarət dövlət maliyyə nəzarətinin ən mühüm istiqamətlərindən birini təşkil edir.

Dövlət maliyyə nəzarətinin subsidiya xərclərinə tətbiqi müxtəlif formalarda reallaşdırılır. Buraya ilkin (preventiv), cari və sonrakı (*ex-post*) nəzarət mexanizmləri daxildir. İlkin nəzarət subsidiya proqramlarının planlaşdırılması mərhələsində risklərin müəyyən edilməsinə imkan yaradır. Cari nəzarət vəsaitlərin icrası prosesində maliyyə intizamının qorunmasını təmin edir. Sonrakı nəzarət isə subsidiya xərclərinin real nəticələrinin qiymətləndirilməsi və səmərəlilik səviyyəsinin müəyyən olunması baxımından mühüm rol oynayır.

Subsidiya xərclərinə tətbiq edilən əsas nəzarət mexanizmlərinə aşağıdakılar daxildir [4, s. 48]:

- ✓ subsidiya proqramlarının hüquqi-normativ əsaslarının yoxlanılması;
- ✓ subsidiya alan subyektlərin maliyyə vəziyyətinin hərtərəfli təhlili;
- ✓ faktiki xərclərin hədəflənən nəticələrlə müqayisəsi;
- ✓ səmərəlilik və nəticəlilik auditinin aparılması;
- ✓ hesabatlılıq və şəffaflıq mexanizmlərinin gücləndirilməsi.

Qeyd olunan mexanizmlər vasitəsilə subsidiya xərclərinin dövlətin sosial-iqtisadi hədəflərinə uyğunluğu qiymətləndirilir və zəruri hallarda müvafiq düzəlişlər edilir.

Sözügedən nəzarət sisteminin güclü olması büdcə vəsaitlərinin səmərəsiz istifadəsinin qarşısını alır, korrupsiya risklərini azaldır, dövlət xərclərinin optimallaşdırılmasına və fiskal dayanıqlığın qorunmasına əlverişli şərait yaradır. Bununla yanaşı, subsidiya xərclərinə nəzarətin həyata keçirilməsində normativ bazanın qeyri-kafiliyi, məlumat çatışmazlığı, institusional zəifliklər və insan resurslarının məhdudluğu kimi bir sıra problemlər də mövcuddur. Bu çətinliklərin aradan qaldırılması üçün dövlət maliyyə nəzarəti sisteminin müasirləşdirilməsi və beynəlxalq mütərəqqi təcrübənin tətbiqi zəruridir.

Beləliklə, effektiv dövlət maliyyə nəzarəti subsidiya xərclərinin şəffaflığını artırmaqla yanaşı, dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsində etibarlı maliyyə mexanizmi kimi çıxış edir.

Bu mənada, nəzarətin institusional əsaslarının möhkəmləndirilməsi subsidiya siyasətinin uğurla reallaşdırılmasının ilkin şərtlərindən biridir.

3. Subsidiya xərclərinin uçotu və qiymətləndirilməsində IAS 20 standartının tətbiqi

Dövlət subsidiyaları – müəssisələrin maliyyə resurslarının artırılması, müəyyən investisiya proqramlarının və layihələrin dəstəklənməsi üçün istifadə olunan mühüm fiskal alətdir. Bu subsidiyalar dövlət büdcəsindən müəssisələrə birtərəfli qaydada ayrılan əvəzsiz maliyyə vəsaitlərini, eləcə də torpaq, tikili və avadanlıq kimi qeyri-monetar aktivləri əhatə edir.

"Dövlət subsidiyalarının uçotu və dövlət yardımının açıqlanması" barədə 20 nömrəli Beynəlxalq Mühasibat Uçotu Standartı (IAS 20) bu növ vəsaitlərin uçotu və hesabatlılıq qaydalarını müəyyən edir. Sözügedən standart alınan subsidiyaların maliyyə hesabatlarında düzgün və şəffaf şəkildə əks etdirilməsini təmin edir. Bu isə öz növbəsində dövlət maliyyə nəzarətini həyata keçirən qurumlara və digər maraqlı tərəflərə subsidiya xərclərinin məqsədəuyğunluğunu, səmərəliliyini, eləcə də iqtisadi təsirlərini obyektiv qiymətləndirmək imkanı yaradır [2, s. 7].

Standart çərçivəsində subsidiyalar iki əsas qrupa – aktivlərə aid olan və gəlirə aid olan subsidiyalara ayrılır. Aktivlərə aid subsidiyalar uzunmüddətli aktivlərin alınması, tikintisi və ya digər üsullarla əldə edilməsi şərti ilə bağlıdır. Gəlirə aid subsidiyalar isə müəssisənin cari fəaliyyət xərclərinin kompensasiya edilməsi və ya onlara dəstək verilməsi məqsədi daşıyır. Hər iki növ subsidiyanın tanınması və maliyyə nəticələrinə təsiri fərqli metodoloji yanaşmalarla tənzimlənir və dövlət maliyyə nəzarətinin təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir.

IAS 20 standartına əsasən, müəssisənin uzunmüddətli aktivlərinin (torpaq, tikili, avadanlıq və s.) əldə olunması ilə bağlı tətbiq edilən aktivlərə aid subsidiyalar iki əsas metodla uçota alınır:

Metod 1: Gələcək dövrün gəliri metodu

$$\text{İllik subsidiya gəliri} = \frac{\text{Subsidiya məbləği}}{\text{Aktivin faydalı istifadə müddəti}}$$

$$\text{İllik amortizasiya} = \frac{\text{Aktivin ilkin dəyəri}}{\text{Faydalı istifadə müddəti}}$$

Cədvəl 1. *Aktiv subsidiyasının uçot əməliyyatları (Gələcək dövrün gəliri metodu)*

№	Əməliyyat	Debet	Kredit	Məbləğ (manat)
1	Subsidiyanın bank hesabına daxil olması	223 "Bank hesablaşma hesabları"	444 "Uzunmüddətli məqsədli maliyyələşmələr"	200 000
2	Gələcək dövrün gəlirinə aid edilməsi	444	442 "Gələcək hesabat dövrlərinin gəlirləri"	200 000
3	Bina alışı	111 "Torpaq, tikili və avadanlıqların dəyəri"	531 "Malsatan və podratçılara qısamüddətli kreditor borcları"	600 000
4	Subsidiyanın hər il gəlirə aid edilməsi	442	611 "Sair əməliyyat gəlirləri"	10 000
5	Bina amortizasiyası	701	112 "Yığılmış amortizasiya"	30 000

Mənbə: (2).

Bu metodda subsidiyanın məbləği hər il proporsional şəkildə gəlirə aid edilir və aktivin amortizasiyası ilə birlikdə hesabat dövründə mənfəət və zərərə təsir göstərir. Bu üsul dövlət maliyyə nəzarəti üçün şəffaflıq yaradır, çünki hər il subsidiyanın təsiri və xərclərin qarşılanması açıq şəkildə görünür.

Metod 2: Aktivin dəyərindən çıxılması metodu

$$Yeni\ aktiv\ dəyəri = Aktivin\ ilkin\ dəyəri - Subsidiyanın\ məbləği$$

Cədvəl 2. *Aktiv subsidiyasının uçot əməliyyatları (Aktivin dəyərindən çıxılması metodu)*

№	Əməliyyat	Debet	Kredit	Məbləğ (manat)
1	Subsidiyanın bank hesabına daxil olması	223	444	200 000
2	Subsidiyanın binanın dəyərindən çıxılması	444	531	200 000
3	Binanın qalan dəyəri üzrə alışı	111	531	400 000

Mənbə: (6).

Bu metodda subsidiyanın məbləği birbaşa aktivin ilkin dəyərindən çıxılır. Nəticədə aktiv üzrə hesablanan illik amortizasiya ayırmaları azalır və subsidiyanın ayrıca gəlir kimi tanınmasına ehtiyac qalmır. Sözügedən üsul, xüsusilə yüksək dəyərə malik aktivlərin uzunmüddətli təsirlərini qiymətləndirmək baxımından dövlət maliyyə nəzarəti üçün olduqca faydalıdır. Çünki aktivin balans dəyəri və amortizasiya xərcləri birbaşa alınmış subsidiya məbləği nəzərə alınmaqla real şəkildə əks etdirilir.

Gəlirə aid subsidiyalar:

- ✓ Aktivlərə aid olmayan bu növ subsidiyalar kompensasiya edilməsi nəzərdə tutulan müvafiq xərclərlə proporsional qaydada hesabat dövründə gəlir kimi tanınır;
- ✓ IAS 20 standartının tələblərinə uyğun olaraq, bu subsidiyalar mənfəət və zərər hesabatında "Sair gəlirlər" kateqoriyasında və ya aidiyyatı xərclərin azaldılması şəklində əks olunur.

Cədvəl 3. *Gəlirə aid subsidiyanın əməliyyat yazılışı*

№	Əməliyyat	Debet	Kredit	Məbləğ (manat)
1	Subsidiyanın kassaya daxil olması	221 Kassa	444 Uzunmüddətli məqsədli maliyyələşmələr	120 000
2	Gəlirə aid edilməsi	444	611 Sair əməliyyat gəlirləri	120 000
3	Xərclərin tanınması	731 Sair əməliyyat xərcləri	221 Kassa	600 000

Mənbə: (6).

Bu metod, cari dövr xərclərinin subsidiyalar vasitəsilə kompensasiyasını əks etdirir. Dövlət maliyyə nəzarəti üçün əhəmiyyəti ondan ibarətdir ki, subsidiyanın xərclərlə uyğunluğu və mənfəət-zərərə təsiri hesabat dövründə açıq şəkildə görünür.

Nəticə

Aparılan araşdırmalar göstərir ki, dövlət subsidiyaları müəssisələrin fəaliyyətində mühüm rol oynayır və onların düzgün uçotu maliyyə hesabatlarının şəffaflığı, həmçinin dövlət maliyyə nəzarətinin səmərəliliyi üçün həlledici əhəmiyyət kəsb edir. IAS 20 standartı subsidiyaların maliyyə uçotunda tanınması və açıqlanması ilə bağlı aydın qaydalar təqdim etməklə sözügedən xərclərin idarə olunmasını standartlaşdırır. Aktivlərə aid olan subsidiyalar uzunmüddətli aktivlərin əldə edilməsi ilə bağlı olub, ya təxirə salınmış gəlir (gələcək dövrlərin gəliri) metodu, ya da aktivin balans dəyərinin azaldılması metodu ilə uçota alınır. Təxirə salınmış gəlir metodu subsidiyanın illər üzrə proporsional şəkildə mənfəət və zərərə transferini təmin etdiyi halda, aktivin dəyərindən çıxılması metodu aktivin ilkin qiymətini azaldaraq amortizasiya ayırmaları üzərindən subsidiyanın təsirini formalaşdırır. Aktivlərlə bağlı olmayan gəlirə aid subsidiyalar isə xərclərin qarşılanması prinsipi əsasında mənfəət və zərər hesabatında "Sair gəlirlər" kimi tanınır və müəssisənin cari dövr xərclərinin kompensasiya edilməsini təmin edir.

Beləliklə, IAS 20 standartının tətbiqi yalnız maliyyə uçotu üçün texniki bir alət deyil, eyni zamanda dövlət və özəl sektor arasında maliyyə şəffaflığını, eləcə də subsidiya xərclərinin effektivliyini təmin edən mühüm vasitədir. Yekun olaraq, subsidiya xərclərinin düzgün qiymətləndirilməsi və uçotu dövlətin maliyyə resurslarının məqsədyönlü istifadəsi, həmçinin müəssisələrin iqtisadi fəaliyyətinin real mənzərəsinin əks olunması baxımından müstəsna əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Abbasov İ., M. Audit. Bakı: Bakı Biznes Universiteti nəşriyyatı, 2016, 530 s.
2. Cəfərov E., O. "Hökumət subsidiyalarının uçotu və hökumət yardımı haqqında məlumatın açıqlanması" adlı 20 №-li beynəlxalq maliyyə uçotu standartına uyğun maliyyə əməliyyatlarının uçotda əks etdirilməsi xüsusiyyətləri" // AUDİT, 2022, 3(37), s. 3-17.
3. Hacıyev F. Audit. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2021, 382 s.
4. Li Q., Li W., Junfeng L. Government subsidies and total factor productivity: The conflict between economic and social objectives // Finance Research Letters, 2025, Vol. 85, pp. 40-51.
5. https://www.muhasib.az/article.php?cat=2&n=216.
6. https://www.muhasib.az/meqale.php?id=121.
7. https://www.ifrs.org/issued-standards/list-of-standards/ias-20-accounting-for-government-grants-and-disclosure-of-government-assistance/.

Резюме

Чингиз Абидли

Международный стандарт финансовой отчетности по неденежным субсидиям (МСФО-МЕТО)

В данной статье подробно анализируется экономическая сущность государственных субсидий, их роль в государственном бюджете, а также их учет и оценка в финансовой отчетности предприятий. Субсидия – это финансовая поддержка, предоставляемая государством предприятиям и организациям, и ее основная цель – стимулирование экономической активности, содействие инвестициям, финансирование социально значимых проектов и обеспечение устойчивого развития экономики страны. Затраты на субсидирование реализуются через государственный бюджет и обеспечивают целевое использование финансовых ресурсов. Таким образом, затраты на субсидирование, как инструмент государственной экономической политики, служат как поддержанию баланса в рыночной экономике, так и обеспечению социального благосостояния.

В статье учет затрат на субсидирование делится на две основные категории в соответствии с МСФО 20. Субсидии, связанные с активами, относятся к приобретению долгосрочных активов и отражаются в учете двумя методами: методом будущих доходов и методом вычета стоимости активов. При методе отложенных доходов сумма субсидии включается в прибыль и убытки пропорционально годам и влияет на отчетный период вместе с амортизацией актива. Субсидии, связанные с доходами, направлены на покрытие расходов, не связанных с активами, и отражаются в отчете о прибылях и убытках как «Прочие доходы» в периоде, в котором признаются соответствующие расходы. Такой подход показывает влияние субсидии на расходы текущего периода и предоставляет государственным финансовым контролерам прозрачную информацию для оценки использования субсидий. В целом, статья доказывает, что при ведении учета и оценки государственных субсидий в соответствии со стандартом IAS 20 как финансовая отчетность предприятий становится прозрачной, так и обеспечивается эффективное использование государственных финансовых ресурсов. Правильное признание и раскрытие расходов на субсидии также играет важную роль в реализации экономической политики, финансовом контроле и эффективном использовании средств государственного бюджета. Такой подход обеспечивает реализацию экономической политики государства, отражение реального состояния деятельности предприятий и подготовку финансовой отчетности в соответствии с международными стандартами. В результате управление, оценка и раскрытие расходов на субсидии рассматриваются как надежный инструмент измерения эффективности экономической деятельности как государственного, так и частного сектора.

Ключевые слова: *расходы на субсидии, финансовый контроль, финансовый учет, государственный бюджет, социально-экономическая политика.*

Summary

Chingiz Abidli

International Financial Reporting Standard on Non-Monetary Subsidies (IFRS-METO)

This article analyzes in detail the economic essence of state subsidies, their role in the state budget, and their accounting and evaluation in the financial statements of enterprises. A subsidy is financial support provided by the state to enterprises and organizations, and its main purpose is to stimulate economic activity, promote investments, finance socially significant projects, and ensure sustainable development of the country's economy. Subsidy costs are implemented through the state budget and ensure the targeted use of financial resources. Thus, subsidy costs, as an instrument of state economic policy, serve both to maintain balance in a market economy and to ensure social welfare.

The article divides the accounting for subsidy costs into two main categories according to IAS 20. Subsidies related to assets are related to the acquisition of long-term assets and are reflected in accounting by two methods: the future income method and the asset cost deduction method. In the deferred income method, the amount of the subsidy is included in profit and loss proportionally over the years and affects the reporting period together with the depreciation of the asset. Subsidies related to income are directed to covering expenses not related to assets and are reflected in profit and loss as "Other income" in the period in which the corresponding expenses are recognized. This approach shows the impact of the subsidy on current period expenses and provides transparent information to state financial controllers to assess the use of subsidies. In general, the article proves that when accounting and assessment of state subsidies are carried out in accordance with the IAS 20 Standard, both the financial statements of enterprises become transparent and the efficient use of state financial resources is ensured. Correct recognition and disclosure of subsidy expenses also plays an important role in the implementation of economic policy, financial control and effective use of state budget funds. This approach ensures the implementation of the state's economic policy, the reflection of the real state of the activities of enterprises and the preparation of financial statements in accordance with international standards. As a result, the management, evaluation, and disclosure of subsidy expenditures is considered a reliable tool for measuring the efficiency of economic activity of both the state and the private sector.

Keywords: *Subsidy expenditures, financial control, financial accounting, state budget, socio-economic policy.*

Rəyçi: *i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlu*